# Biznes etikası ilə bağlı ATİB-in mövqe sənədi

## *Bizim bir-birimizə və əsas steykhoderlərimizə olan münasibəti müəyyən edən rəhbər sənəd*

**Azərbaycan Türkiyə İş Adamları Birliyi (ATİB) yarandığı vaxtdan bu günə qədər ölkədə işgüzar fəallığın artırılması, biznesin aparılmasında ədalətlilik prinsiplərinin rəhbər tutulması, korporativ mədəniyyətin daha da yüksəldilməsi naminə öz üzərinə düşən missiyanı bilərək bu istiqamətdə aktiv fəaliyyət göstərmişdir. Biznes etikasının sosial kapitalın inkişafı vasitəsilə hətta iqtisadi inkişafa korporativ təsirinin olması nəzərdən qaçırılmamalıdır.**

**ATIB-in öz fəaliyyətində əsaslandığı və təşkilatın strateji sənədlərində əksini tapan təməl dəyərləri bunlardır:**

- ***liderlik:*** *öz sahəsində lider olan bir təşkilat kimi mövqelərini qorumaq və daha da gücləndirmək;*

- ***müstəqillik:*** *fəaliyyətində bütün maraq tərflərinin ehtiyaclarını və maraqlarını nəzərə almaqla yanaşı, heç bir tərəfdən asılı olmamaq, müstəqil şəkildə öz strategiyasını və fəaliyyət planını müəyyənləşdirib icra etmək;*

- ***dürüstlük:*** *xidmət benefisiarlarına və bütövlükdə cəmiyyətə qarşı dürüst davranmaqla öz müsbət reputasiyasını daim qorumaq;*

- ***ədalətlilik:*** *baş verən hadisələrə münasibətdə və işçi heyəti ilə qarşılıqlı fəaliyyətdə bərabərlik və obyektivliyə nail olub məsuliyyət və səlahiyyətin optimal nisbətini tapmaq;*

- ***innovativlik:*** *resurslardan istifadənin və fəaliyyətin səmərəliliyini artırmaq üçün daim yenilikləri öyrənmək və tətbiq etmək;*

- ***açıqlıq:*** *yerli, regional və qlobal təşəbbüslərə çevik qoşulma, müxtəlifliklərə və fərqli münasibətlərə dözümlü yanaşma.*

**ATİB öz əməkdaşlarının hüquq və azadlıqlarına hörmətlə yanaşaraq, həmin yanaşmanı öz üzvü olan şirkətlərə də tövsiyə edərək, habelə müasir peşəkar idarəetmə ənənələrinə sadiqliyini nümayiş etdirərək və bütün maraq tərəfləri qarşısında məsuliyyətini dərk edərək biznes etikası ilə bağlı öz mövqe sənədini təqdim edir.**

## Əsas komponentlər:

### 1. ATİB-in öz üzvləri ilə və üzvlərin öz müştəriləri ilə münasibəti

- *ATİB öz üzvləri qarşısında təşkilatın nizamnaməsinə uyğun olaraq üzərinə düşən vəzifələri müasir korporativ mədəniyyət meyarlarına əsasən icra edir. ATİB üzvü olan şirkətlər də müştərilərilə münasibətdə ilk növbədə yüksək keyfiyyətli məhsul və xidmətlərin zamanında təklif edilməsi prinsipini əsas tutmalıdır. Şirkətlər tərəfindən aparılan bütün biznes əməliyyatları və sazişləri ölkə qanunvericiliyinə uyğun olmalıdır.*

- *Müştərilərin öz növbəsində keyfiyyətli məhsul və xidmət əldə etmək, qərəzsiz münasibət və etik rəftar görmək, öhdəliklərin vaxtında yerinə yetirilməsini tələb etmək, lazım olan hallarda müştəri məlumatlarının qorunmasına təminat almaq hüquqları vardır.*

### 2. İşçilərlə münasibətlər

ATİB üzvü olan şirkətlərin və ATİB Katibliyinin əməkdaşları ilə münasibətdə aşağıdakı baza prinsipləri təsbit olunur və onlara riayət edilir:

- *əmək müqaviləsində göstərilən əmək intizamı və əmək təhlükəsizliyi qaydalarına tam əməl edilməsi;*
- *qarşılıqlı etik davranış standartlarının tətbiqinə səy göstərilməsi;*
- *hər bir əməkdaş üçün ədalətli iş şəraiti və tam bərabər əmək imkanlarının yaradılması;*
- *təşkilatın mülkiyyətindən və aktivlərindən səmərəli istifadə edilməsi;*
- *iş yerində alkoqollu içkilərin və narkotik maddələrin qəbulunun, habelə cinsi təqib hərəkətlərinin yolverilməzliyi;*
- *işçilərin sağlamlığı və təhlükəsizliyinin tam təmin edilməsi, iş yerində zorakılıq hallarına yol verilməməsi;*
- *işçilərin öz peşəkar bilik və bacarıqlarını daim təkmilləşdirmələrinə lazımi şəraitin yaradılması;*

### 3. Təchizatçılarla münasibət

*ATİB və onun üzvü olan şirkətlər öz təchizatçıları ilə əməkdaşlıqları qarşılıqlı fayda və sağlam bazar rəqabəti prinsipləri əsasında qurur, təchizatçılara düzgün və ədalətli münasibət bəsləyir, onlarla bağlanan müqavilələrin şərtlərinə əməl edir, müvafiq ödənişləri vaxtında reallaşdırır, təchizatçılarla bağlı kommersiya sirrlərini yaymırlar.*

### 4. Rəqiblərlə münasibət

*ATİB və onun üzvü olan şirkətlər öz rəqibləri ilə haqsız rəqabət aparmamalı, rəqabət qanunvericiliyinin şərtlərinə əməl etməli, müəlliflik və mülkiyyət hüquqlarına hörmətlə yanaşmalı, rəqiblərlə gizli sövdələşmələrə gedərək istehlakçılar üçün şərtlərin daha da ağırlaşmasına yol verməməlidirlər.*

### 5. Maliyyə intizamı və qənaət prinsipi

*ATİB və onun üzvü olan şirkətlər maliyyə hesabatlarını və digər mühasibat sənədlərini beynəlxalq prinsip və standartlara uyğun olaraq tərtib edir, həmçinin illik audit yoxlamalarını peşəkar auditorlara həvalə edir. Maliyyə intizamının pozulmasına və hər hansı formada israfçılığa yol verilmir.*

**6. İnformasiya təhlükəsizliyi və konfidensiallıq**

*ATİB və onun üzvü olan şirkətlər rəqabət qabiliyyətinə təsir edə biləcək və qanunvericiliyə uyğun konfidensial informasiyaların qorunması öhdəliklərini dərk edirlər. Həm təşkilatların rəhbərliyi, həm də işçilər bu sahədə məsuliyyət daşıyırlar. İnformasiya təhlükəsizliyi siyasəti, ictimaiyyət üçün açıq olmalı olan məlumatların cəmiyyətə çatdırılmasına mane ola bilməz.*

**7. Maraqların münaqişəsi**

*ATİB və onun üzvü olan şirkətlərdə çalışan əməkdaş təşkilat adından qəbul edilən qərarlara təsir edən hər hansı bir kənar əlaqələrə malikdirsə, bu zaman maraqların münaqişəsi baş verə bilər ki, bu da yol verilməzdir. Müştərilər, distribyutorlar, rəqiblər və təchizatçılar ilə münasibətlərdə şəxsi maddi marağın güdülməsi, əməkdaşların rəqib şirkətlərlə təşkilata zərər verə bilən əlavə işgüzar əlaqələrə malik olması da qəbul edilməzdir.*

**8. Sosial məsuliyyət və ictimaiyyətlə əlaqələr**

- *ATİB və onun üzvü olan şirkətlər fəaliyyət göstərdikləri ərazinin icması və bütün cəmiyyət qarşısında sosial məsuliyyət daşıyırlar. Bunun nəticəsi kimi sosial problemlərin həllinə yönələn sosial investisiya qoyuluşları və sosial sahibkarlığın inkişafının dəstəklənməsi təqdir olunur.*
- *ATİB və onun üzvü olan şirkətlər ölkənin mədəni irsinə, onun milli-mənəvi dəyərlərinə hörmətlə yanaşır və bu irsin qorunması və daha da zənginləşdirilməsi üçün səy göstərir.*
- *ATİB və onun üzvü olan şirkətlər Azərbaycanın iqtisadi inkişafı və ölkənin xaricdə tanıtımı missiyasını daim rəhbər tutmalı və bunun naminə öz işgüzar reputasiyalarının etibarlılığına önəm verməlidirlər.*
- *ATİB və onun üzvü olan şirkətlər öz fəaliyyətləri barədə cəmiyyəti mütəmadi olaraq dolğun şəkildə məlumatlandırmalıdırlar. Bu məqsədlə ictimaiyyətlə əlaqələr və ya mətbuat xidməti tipli bölmələr bütün üzv təşkilatlarda olmalıdır.*

**9. Siyasi fəaliyyətə münasibət**

*ATİB birbaşa siyasi fəaliyyətlə məşğul olmur və onun büdcəsindən hər hansı siyasi təşkilata vəsait ayrıla bilməz. Ancaq eyni zamanda, o, üzvlərin və Katiblik əməkdaşlarının aktiv siyasi mövqelərinə və bu mövqelərin açıq ifadə olunmasına da təsir edə bilməz.*

**10. Ətraf mühitin müdafiəsi**

*ATİB və onun üzvü olan şirkətlər ətraf mühitin qorunmasına öz ayrılmaz öhdəlikləri kimi baxmağa borcludurlar. Həyata keçirilən istehsal prosesində və göstərilən xidmətlərdə mənfi ekoliji təsirlərin azaldılması və bu sahədəki beynəlxalq öhdəliklərin nəzərə alınması vacibdir.*

## Yekun müddəa

*Bu biznes mövqe sənədinin müddəalarına əməl etmək ATİB üzvlərinə tövsiyyə olunur. Onun müddəalarının ciddi və müntəzəm pozulması halında müvafiq üzvlə bağlı məsələ ATİB İdarə Heyətində müzakirəyə çıxarıla bilər.*